Səh. 2 BİZ NƏYƏ İNANIRIQ?
Səh. 3 BU GÜN YAŞAYA BİLMƏDİYİMİZ İNSANLIQ
Səh. 3 15 İYUL HADİSƏSİNDƏN 4 İL ÖTÜR
Səh. 4 TƏCRÜBƏÇİ MÜƏLLİM STATUSU LƏĞV OLUNUR
Səh. 5 ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN
Səh. 6 AYASOFYA
Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 7 SEÇSƏ YA SEÇMƏSƏ?

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL
2020-Cİ İL
№008 (112)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## PARLAMENTDƏ VİTSE-SPİKERLƏRİN SAYI AZALDILIR



Gürcüstan parlamentinin sədr müavinlərinin sayı **7 nəfərdən 5 nəfərədək azaldılır.** Bununla bağlı qanunverici orqanın prosedurlar qaydasına düzəlişlər edilib.

Düzəlişləri üçüncü oxunuşda 89 deputat dəstəkləyib.

Fraksiyaların formalaşdırılması üçün də qaydalar yenilənib. Yeni qaydalara əsasən, **ən azı 7 deputat fraksiya yaratmaq hüququna malik olacaq**.

Bundan əlavə, **parlament azlığı statusu da ləğv edilir**. Qanunverici orqanda **parlament çoxluğu və parlament müxalifəti olacaq**.

## SALOME ZURABİŞVİLİ AZƏRBAYCAN-ERMƏNİSTAN SƏRHƏDİNDƏKİ GƏRGİNLİYƏ MÜNASİBƏT BİLDİRİB



Prezident Salome Zurabişvili Azərbaycan-Ermənistan sərhədindəki gərginliklə bağlı bəyanat yayıb. O, bölgədə sülh və sabitliyin önəmli olduğunu bildirib.

S.Zurabişvili qeyd edib ki, bu gün gözəgörünməz düşmənlə birgə mübarizə aparılan bir dövrdə beynəlxalq həmrəylik və qlobal sabitliyin saxlanılması böyük əhəmiyyətə malikdir.

**"Bölgəmizdə sülh və sabitlik həm Gürcüstan, həm də dost və tərəfdaş ölkələr – Azərbaycan və Ermənistanın gələcək inkişafı və tərəqqisi üçün önəmlidir"**, - deyə S.Zurabişvili qeyd edib.

Prezident vaxtında lazımı addımların atılacağına və sülh danışıqları yolu ilə vəziyyətin gələcək eskalasiyasına yol verilməyəcəyinə ümidvar olduğunu bildirib.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXANLARIN SAYI ARTIB




Gürcüstanda koronavirusa yoluxma halları çoxalıb. www.stopcov.ge saytında verilən məlumata əsasən, ölkədə indiyədək COVID-19 aşkarlanan şəxslərin sayı **1003**-ə çatıb. Sağalanların sayı isə **873** nəfər göstərilir. Məlumata əsasən, ölkədə koronavirusdan dünyasını dəyişənlərin sayı **15** nəfərdir.

Hazırda karantin rejimində **5 640** nəfər, stasionar nəzarətdə isə **244** nəfər saxlanılır.

Xaricdən müalicə üçün ölkəyə gətirilənlərin sayı isə **31** nəfərdir.

Qeyd edək ki, Qardabanidə koronavirusa ilk yoluxma halları qeydə alınıb. COVID-19 aşkarlanan şəxslər 74 yaşlı qadın və onun 18 yaşlı nəvəsidir.

## GÜRCÜSTAN BİR NEÇƏ ÖLKƏ VƏTƏNDAŞLARI ÜÇÜN SƏRHƏDLƏRİNİ AÇIR



Hökumətin qərarına əsasən, Gürcüstan Avropa İttifaqına üzv olan bir neçə ölkənin vətəndaşları üçün sərhədlərini açır.

Həmin ölkələrin siyahısına Almaniya, Fransa, Latviya, Litva və Estoniya daxildir.

Qeyd edək ki, Avropa İttifaqı Gürcüstanı təhlükəsiz ölkələr siyahısına daxil edib. İttifaqa üzv ölkələr mərhələli şəkildə Gürcüstan vətəndaşları üçün sərhədlərini açır.



# BİZ NƏYƏ İNANIRIQ?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Biz nəyə inanırıq və ya biz nəyə tam olaraq, səmimi qəlblə inanırıq?..

İnam olmayan yerdə iman olmaz deyib atalarımız, imanını tərəziyə qoyanları görüb imanına tula bağlatdıranlar da oldu, imanını yandıranlar da. Günahı öz boynuna. Mən onların imanına bağlanan tulaları açıb buraxmaq fikrində deyiləm. İt də gedər, ip də. Çünki əqidə azadlığı deyilən bir zad var. Mürtəd oldu, olmadı, day onu da tula sahibi özü bilər, mən imanımı yandıra bilmərəm.

Yuxarıda soruşduğum sual isə imanlıya da, imansıza da ünvanlanıb, bu ikisinin ortasında qərar tutana da. BİZ də məhz elə budur – məşhur reklamda deyildiyi kimi – üçü bir arada. Malım yox, divan apara, imanım yox, şeytan apara deyənlər isə onsuz da bu yazını oxumayacaqlar.

Qayıdaq suala. Daha konkret olsun deyə sözümün mustafasını elə bu abzasdaca yazıram. Bütün dünyanı “imana” gətirən yeni koronavirus niyə BİZi özünə inandıra bilmir. Minlərlə insanın canını alan virusun varlığına hələ də inanmırıq. Burnumuzun ucuna qədər yaxınlaşan koronavirusa durbini tərs tutaraq baxırıq. Sosial şəbəkələrdən də aydın olur ki, dünyada bu virusla daha çox məzə tutan, lağlağı edən, inanmayan da elə bizik. Virusla bağlı xəbərin altındakı şərhləri oxuyanda təəssürat yaranır ki, biz koronavirusun yalan olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxırıq. Hardandır bu entuziazm. Elə bil hamı bir-birinə söz verib ki, koronavirusun yalan olduğunu, oyun olduğunu hər kəsə söyləməli, inandırmalıdır.

Mağazanın qarşısında növbəyə durursan, tibbi maska çənəsində bir dayı ortaya girib virusun yalan olduğunu söyləyir. Aptekin qarşısında növbə gözləyirsən maska ilə təkcə ağzını örtmüş bir xala and-aman edir ki, koronavirus zad yoxdur. Avtobusa minirsən, koronavirusun seçkilərə görə bir oyun olduğu haqqında yaşlı dayılar, əmilər arasında qızğın debat gedir (yaşlı demişkən, niyəsə ən çox da yaşlı nəsil inanmır koronaya). Demək istəyirsən ki, ay əmilər, dayılar, axı virus bütün dünyanı bürüyüb, bunun virusun az yayıldığı Gürcüstanda keçiriləcək seçkilərə nə dəxli var, indi Gürcüstanda seçkilər keçiriləcək deyə minlərlə insanmı ölməlidir bütün dünyada?.. Vallahi, bir azca beynini qırışdırıb fikirləşəndə beyin də error verir. Axı bu nə məntiqdir, necə fantaziyadır, həncəri təxəyyüldür ki, təkcə bizim ağlımıza gələ bilir... Kor şeytana lənət oxuyub susursan.

Heç nəyə, heç kimə inanmırıq: nə elmə inanırıq, nə alimə (cadu-pitiyə daha çox inanırıq); nə həkimə inanırıq, nə dava-dərmana (antibiotikdən çox sarımsağa inanırıq); nə təhsilə inanırıq, nə dəftər-kitaba (alverə daha çox inanırıq); nə tarixə inanırıq, nə tarixçiyə; (ətrafında inanaraq təvaf edəcəyimiz ümumi ideologiyamız hələ yoxdur bəlalərinin ucbatından) nə hürriyyətə inanırıq, nə milliyyətə (hələ də komunizmə zada inananlarımız var, o da ala-bula); nə dindara inanırıq, nə dinə (xurafata daha çox inanırıq); nə idmana inanırıq, nə idmançıya; nə qələbəyə inanırıq, nə gələcəyə; nə Ümumdünya Səhiyyə Təşkilatına inanırıq, nə öz səhiyyəmizə, nə də koronavirusa... inansaq da yarı-yarımçıq inanırıq. Bəs biz nəyə bütöv, ürəkdən inanırıq görəsən?

Sən inanmırsan inanma, bəs qarnının azarı nədir ki, BİZi də öz inamsızlığının ateistinə döndərmək istəyirsən? Gərək elə virusa yoluxaqmı inanaq? Gərək elə qohum-əqrəbandan kimsə virusa tutulamı inanasan? Sən maska taxmırsan özün bilərsən, bəs maska taxanlarla nədir işin? Sən tövsiyələrə, qaydalara əməl etmirsən, bəs niyə əməl edənləri də yolundan azdırmağa can atırsan? Axı buna görə sənə nə verirlər? Bəs sən nəyə, kimə inanırsan ümumiyyətlə?

Cəhənnəmə gedən özünə yoldaş axtarar deyib atalarımız həm də. Allah hidayət versin.

## GİORGİ QAXARİA: BİZ QURU SƏRHƏDLƏRİ AÇMAĞI PLANLAŞDIRMIRIQ



“Gürcüstan sərhədlərini açmaq üçün tələsik addımlar ata bilməz”. Bunu ölkənin baş naziri Giorgi Qaxaria deyib.

O, quru sərhədlər vasitəsilə Gürcüstan vətəndaşlarının təxliyəsi və yüklərin daşınmasının təmin olunduğunu bildirib.

G.Qaxarianın sözlərinə görə, ölkə sərhədlərində effektiv nəzarət həyata keçirilir: “Lakin biz quru sərhədləri açmağı hələ planlaşdırmırıq”.

## ÖLKƏNİN MÜDAFİƏ QÜVVƏLƏRİ BAŞ QƏRARGAHINA YENİ RƏİS TƏYİN OLUNUB



Gürcüstanın Müdafiə Qüvvələri Baş Qərargahına yeni rəis təyin olunub. Yeni təyin olunmuş general-mayor Giorgi Matiaşvili 2019-cu ildən Baş Qərargahın rəis müavini olub və uzun illər Gürcüstanın Müdafiə Nazirliyində müxtəlif yüksək vəzifələrdə çalışıb.

Qeyd edək ki, Müdafiə Qüvvələrinin Baş Qərargahına 2018-ci ilin dekabrından bu günə qədər general-leytenant Vladimir Çaçibaya rəhbərlik edib.

## XARİCİ İŞ ADAMLARI ÜÇÜN KARANTİN VƏ KORONAVİRUSLA BAĞLI TESTDƏN KEÇİRİLMƏ ÖDƏNİŞLİ OLACAQ

Gürcüstana səfər edəcək əcnəbi iş adamları üçün karantin və koronavirusla bağlı testdən keçirilmə ödənişli olacaq. Bu haqda İqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava bildirib.

Onun sözlərinə görə, biznesmenlərə ya ödənişli ikihəftəlik karantin, ya da mütəmadi olaraq testdən keçirilmə təklif olunacaq. Hər iki halda əcnəbi vətəndaşlar xərcləri öz hesablarına ödəməli olacaqlar.

Karantin xidmətlərinin dəyərinə gəlincə, nazir məbləğin çox böyük olmadığını deyib.

O qeyd edib ki, bu qaydalar vətəndaşların sağlamlığını qorumaq və investorlarla kommunikasiyanın pozulmaması məqsədi ilə tətbiq ediləcək.

Baş nazirin müşaviri İrakli Çikovani bildirib ki, Gürcüstan işgüzar məqsədlə ölkəyə gələcək bütün xarici iş adamlarını qəbul edəcək.

“Ölkəyə gələcək biznesmenlər xüsusi formanı doldurmalı olacaqlar. Xarici vətəndaşlar




COVID-19-la bağlı hər 72 saatdan bir test olunmalı və ya 14 günlük məcburi karantinə alınmalıdırlar. Hər iki halda bütün xərcləri iş adamları öz hesablarına ödəməli olacaqlar”, - deyə İ.Çikovani deyib.

Qeyd edək ki, Gürcüstan əcnəbilər üçün sərhədlərini martın 18-dən bağlayıb. Xaricdən təxliyə olunan vətəndaşlar isə ölkədə dövlət hesabına ikihəftəlik karantinə götürülür.

## AÇIQ HAVADA 200 NƏFƏRLİK TƏDBİRLƏRİN KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLİB



Hökumətin qərarına əsasən, iyulun 13-dən etibarən açıq havada 200 nəfərlik mədəni tədbirlərin keçirilməsinə icazə verilib.

Qərara əsasən, bu cür tədbirlərin auditoriyası 200 nəfərdən çox olmamalıdır.

Həmçinin qapalı məkanlarda məşqlərin keçirilməsi də mümkün olacaq.

# 15 İYUL HADİSƏSİNDƏN 4 İL ÖTÜR



Qonşu və dost ölkə olan Türkiyə Cümhuriyyətində 2016-cı ilin 15 iyul gecəsi xaincəsinə planlaşdırılmış olan çevrilişə cəhd hadisəsindən 4 il ötür.

Bu tarix həmin gecədə əsgər geyimli Fətullahçı Terror Təşkilatı (FETÖ) üzvlərinin iqtidarı ələ keçirmək, ölkəni və milləti bölmək məqsədiylə yuxarı təbəqədəki bəzi rütbəlilərin də dəstəyi ilə edilən çevriliş cəhdinin tarixidir. Çevriliş cəhdi Türkiyə üzərində əməli olan terror təşkilatları və dövlətlər tərəfindən açıq və ya gizli olaraq dəstəklənmişdir. Çevrilişçilər hər cür silah istifadə etməkdən belə çəkinməmiş, silahsız xalqın üzərinə atəş açmışlar. Ölümü bahasına çevrilişçilərə etiraz edən türk xalqı həmin gecə 249 şəhid və 2183 qazi verərək çevrilişin qarşısını almışdır.



Bu hadisə bütün dünyada yaşayan türk kökənli xalqları narahat etdiyi kimi Gürcüstanda yaşayan türk kökənli azərbaycanlıları da narahat etmişdir ki, bu məqsədlə həmin gecə hər kəs səhərə kimi televiziya kanallarını, internet portallarını və xəbər saytlarını saniyə-saniyə izləmiş, gedişatdan məlumat əldə etməyə çalışmışdılar.

Məhz bu səbəblə Gürcüstanın o zamankı baş naziri Georgi Kvirikaşvili Türkiyənin paytaxtı Ankaraya səfər etmiş, Türkiyə hakimiyətinin və türk xalqının yanında olduqlarını bildirmiş və çevriliş zamanı şəhid olanların ailələrinə və türk xalqına başsağlığı vermişdir.

Bu hadisədən 4 il ötməsinə baxmayaraq Gürcüstanda hər il bu çevrilişin ildönümü ilə bağlı müxtəlif təşkilatlarda, məscidlərdə tədbirlər təşkil olunur, şəhidlərin ruhlarına dualar oxunur.



Əslində 15 İyul, şübhəsiz ki, Türkiyə üçün olduğu qədər dünya üçün də çox əhəmiyyətli bir tarixdir. Çünki bugünə qədər bir çox dövlətlərdə bu cür hadisələr baş vermiş olsa da, millət tankların və silahların qarşısına çıxsa da 15 iyulda olduğu kimi çevriliş cəhdini önləməyə müvəffəq ola bilməmişdir. Bu da türk millətinin bir daha nə qədər yenilməz, vətənpərvər millət olduğunun sübutudur.

15 iyulda həyatını itirən şəhidlərə Allahdan rəhmət, qazilərə sağlam ömür diləyirik.

# BU GÜN YAŞAYA BİLMƏDİYİMİZ İNSANLIQ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Hər insan bir dünyadır. Hər insanın dünyası fərqlidir. Xarakteri fərqli, duyğu və düşüncələri fərqli, dünyagörüşü və həyat fəlsəfəsi fərqlidir. Davamlı bu dünyanı kəşf etməyə, tanımağa çalışırıq. Bundan ötəri bir-birimizə davamlı sitəm edib dururuq. Ailələrimiz fərqli, yaşadığımız cəmiyyət fərqli… Fərqli tək şey insan olduğumuz, insani dəyərlərimiz, sevgi, hörmət, vicdan, mərhəmət, haqq, hüquq, ədalət, ictimai köməkləşmə, həmrəylik və paylaşma mədəniyyətimiz. Fərqli olan vərdişlərimiz və davranışlarımızı nədənsə bir müxtəliflik, zənginlik olaraq dəyrləndirəcəyimizə, bir-birimizə qarşı anlayışsızlıq və tənqid etmə, "böl, parçala, yox et" davranışı olaraq istifadə edirik. Bu uğurda bir-birimizə hər cür pisliyi, çirkinliyi rəva görürük. İntiqam və qisas alma duyğularıyla düşüncəsizcə qan tökərək gözyaşlarına səbəb oluruq. Ürəklərə atəş qoyur, ailələri yox edirik. Bir-birimizə əziyyət etməkdə bu fərqli xüsusiyyətlərimizi güc olaraq istifadə etməyə çalışır, bu uğurda hər cür səy göstərməkdən özümüzü saxlaya bilmirik. Unutmayaq ki, biz bir-birimizə bənzəyirik; amma sən qara, mən ağ olaraq yolumuza davam etməliyik, bundan başqa insan olaraq bir-birimizdən fərqimiz yoxdur. Yalnız tək fərqimiz inanc, iman və etiqadımızdır. Hər kəs inancı nisbətində fərq sahibidir.

Həyat boyu bir-birimizə dəstək oluruqmu, məsuliyyətlərimizi bilirikmi, vəzifələrimizi nə dərəcədə yerinə yetiririk? Əlimizdəkilərin nə qədərini paylaşırıq və heç bir pis niyyət güdmədən nə qədər bərabərcə hərəkət edə biliri?.. Əsas məsələ budur.

Yazımızın başında da insanlıq mövzusuna toxunduq. Bu gün insanlıq tarixin bəlkə də ən çətin dövrünü yaşayır.

İnsan olmaq, bir ürəyə ümid olmağı, qarşılıqsız olaraq sevməyi, sevilməyə layiq olanı sevməyi bacara bilməkdir. Yəni ürəkli olmaqdır, inandığı dəyərlərin arxasından qorxusuzca getməyi, başqalarının qürurunu incitmədən mən buyam deyə bilməyi bacara bilməkdir.

Bizim bu gün yaşaya bilmədiyimiz, ancaq olması gərəkən insanlıq mübahisə etmədən müzakirəni, mənfəət güdmədən paylaşmağı, darıxdığında ziyarət etməyi, pisliyi yaxşılıqla qarşılamağı bilməkdir. Qazandığına şükr edərək onunla kifayətlənmək, köməyə ehtiyacı olana kömək etmək, özü üçün yaşayarkən yanındakını da düşünmək, hər halına şükr edə bilməkdir insan olmaq.

Bir çiçəyin açılışında ümid, bir uşağın baxışında sevgi, doğan günəşin istiliyində hüzur tapa bilməkdir əsl insanlıq.

İnsan olmaq, bir-birini anlamaq deməkdir. Vəhşi həyatda bir-birimizlə döyüşüb qısa həyatlar sürmək yerinə birlik olub birlikdə uzun həyatlar sürməkdir. Uşaqları təbiətə tərk etmək deyil, əksinə onları yetişdirərək və ömür boyu yanında olaraq inkişaf etdirməkdir. Öz təhlükəsizliyini bir kənara buraxıb bunu təmin etməsi üçün başqasına güvənməkdir.

Qısacası, insan olmaq əvvəlcə özünü, sonra ətrafında olan hər şeyi sevmək deməkdir.

Pula hərisliyin adı zənginlik, cinsi pozğunluğun adı isə eşq olmuş zamanımızda.

İnsanın əsl zənginliyi ürəyidir. Ehtiyacı olana əlindəkindən verə bilirsə, o da mənə verər demədən paylaşırsa, ümid, sevgi, bilgi paylaya biləcək qədər ürəyi varsa zəngindir insan.

Sevdiyinin həyatını öz həyatı sayırsa, incitməkdən qorxaraq, içi titrəyərək baxırsa sevdiyinin gözlərinə o zaman bu eşqdir.

# MÜƏLLİMLƏRİN KARYERADA İRƏLİLƏMƏSİ SXEMİNƏ DƏYİŞİKLİKLƏR EDİLİB: TƏCRÜBƏÇİ MÜƏLLİM STATUSU OLMAYACAQ

Müəllimlərin peşəkar inkişafı və karyerada irəliləmə sxeminə dəyişikliklər daxil edilib. Hökumətin sərəncamı ilə ən aşağı müəllim statusu baş müəllim, ən yüksək müəllim statusu isə mentor müəllim statusudur. Təcrübəçi (praktikos) müəllim statusu isə ləğv olunur.

Sərəncamda müəllimin peşə öhdəlikləri və statusu dəyişmək üçün həyata keçirməli olduğu fəallıqlar qeyd edilib.

**Ümumtəhsil müəssisələrində müəllimin peşə öhdəlikləri:**

a) Tədris ilinin başlanğıcında özünüqiymətləndirmə əsasında fənn üzrə təhsil planının (kurikulumun) tərtib edilməsi;

b) Fənn üzrə təhsil planının hər bir mövzusu çərçivəsində təhsil prosesinin idarəsi və həyata keçirilmiş işlərin refleksiyası (özünüqiymətləndirmə);

c) Hər hansı mövzu çərçivəsində həyata keçirilmiş özünüqiymətləndirmə/qiymətləndirmə və dərsi müşahidə nəticələrinin analizi əsasında peşə ehtiyaclarının müəyyənləşdirilməsi və fənn üzrə təhsil planının inkişaf dinamikasının təmin edilməsi;

ç) Hər semestrin/tədris ilinin sonunda, ümumtəhsil müəssisəsinin direktoru ilə, yaxud keyfiyyətin inkişafı və dəstək qrupu ilə (əgər mövcuddursa) peşə inkişafı məqsədi ilə həyata keçirilmiş fəallıqların/strategiyaların nəticəsinin müzakirəsi. Bunun nəticəsində direktordan, yaxud keyfiyyətin inkişafı və dəstək qrupundan (əgər mövcuddursa) inkişafla bağlı rəy alacaq.

d) Bir tədris ili ərzində ehtiyacdan irəli gələrək Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzi tərəfindən təşkil edilmiş, yaxud tətbiq olunmuş qaydaya uyğun olaraq təlimlər keçmək:

d.a) Baş müəllim ən azı 20 əlaqə saatı ərzində təlim keçəcək;

d.b) Aparıcı müəllim ən azı 12 saat təlim keçəcək.

d.c) Mentor müəllim ən azı 6 saat təlim keçəcək;

e) Bir təhsil ili ərzində ehtiyacdan irəli gələrək peşəkar inkişaf və başqa fəallıq/fəallıqların həyata keçirilməsi;

ə) Həmkarlarla bərabər şagirdlərin nəticələrinin təkmilləşdirilməsi üçün məktəb mədəniyyətinin inkişafı.

f) Ümumtəhsil müəssisələrində çalışan zaman etik normalara riayət etmək.

Ümumtəhsil müəssisəsinin direktoru, yaxud keyfiyyətin inkişafı və dəstək qrupu müəllimin fəaliyyətini müşahidə edir (həmçinin dərs prosesini), qiymətləndirir və inkişaf üçün rəy verir.

Ümumtəhsil müəssisəsinin direktoru, yaxud keyfiyyətin inkişafı və dəstək qrupu baş müəllim olan halda 1 tədris ili ərzində 3 və daha artıq dərsi (ehtiyacdan irəli gələrək), aparıcı müəllim olan halda ən azı 2 dərsi, mentor müəllim olan halda isə ən azı 1 dərsi müşahidə edir.

**BAŞ MÜƏLLİM STATUSUNUN VERİLMƏSİ**

Baş müəllim statusu fənn imtahanını uğurla vermiş şəxsə verilə bilər. Həmin şəxs imtahanı uğurla vermək üçün Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin müəyyən etdiyi həddi aşmalıdır.

Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzinin direktoru Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi tərəfindən verilmiş məlumatlar (ad, soyad, şəxsi nömrə və imtahanda topladığı bal) əsasında baş müəllim statusunun verilməsi haqqında qərar qəbul edir və bu haqda inzibati-hüquqi akt tərtib olunur.

**APARICI MÜƏLLİM STATUSUNUN VERİLMƏSİ**

Baş müəllim statusu qazanmaq üçün imtahan vermiş, yaxud fənn kompetensiyasını ən azı 50% nəticə ilə təsdiqləmiş və ya akdemik dərəcə əsasında baş müəllim statusu qazanmış müəllimə aparıcı müəllim statusu verilə bilər. Əks halda baş müəllim statusu qazanmaq üçün fənn imtahanını təkrar verməyə məcburdur.

Aparıcı müəllim statusu qazanmaq üçün baş müəllim qiymətləndirmədən keçməlidir. Qiymətləndirmə isə aşağıdakılardan ibarətdir:

a) Aparıcı müəllim statusuna uyğun peşə qabiliyyəti imtahanı vermək;

b) Müəllimin praktiki fəaliyyətinin qiymətləndirilməsi:

b.a) Kənar müşahidə və müəllim tərəfindən mövzu çərçivəsində həyata keçirilmiş dərsdən sonrakı refleksiya (özünüqiymətləndirmə).

b.b) Məktəb ictimaiyyəti üzvləri ilə söhbət (müsahibə) və portfolionun qiymətləndirilməsi.

Məktəb ictimaiyyəti üzvləri ilə söhbət (müsahibə) müəllimin peşə standartları ilə nəzərdə tutulmuş öhdəliklərin keyfiyyətinin müəyyənləşdirilməsinə istiqamətlənib.

Müəllimin portfoliosu müəllim standartları ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini təsdiq edən sənəd əsasında qiymətləndirilir. Sənəd ümumi təhsil idarəsi sistemində (sonradan "eschool.emis.ge", yaxud elektron sistem) olan elektron portfolioya yüklənməlidir.

Aparıcı müəllim statusuna uyğun olaraq, əgər şəxs qüvvədə olan qanunvericilik əsasında Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri tərəfindən tətbiq edilmiş həddi aşarsa peşə qabiliyyəti imtahanını uğurla vermiş hesab olunur.

Şəxsin imtahanda əldə etdiyi nəticələr 3 il ərzində qüvvədə qalır. Şəxsin həmin 3 il ərzində qiymətləndirmənin praktiki hissəsini keçmək hüququ var.

Aparıcı müəllimin peşə qabiliyyəti imtahanını uğurla başa vurması halında praktiki hissədə müəllimlərin qiymətləndirilməsini Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzi həyata keçirir.

Müəllimin praktiki fəaliyyətinin hər hansı komponenti qanunvericiliyə uyğun olaraq Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzinin direktoru tərəfindən təsdiqlənmiş qiymətləndirmə alətləri ilə qiymətləndirilir.

**MENTOR MÜƏLLİM STATUSUNUN VERİLMƏSİ**

Baş müəllim statusu qazanmaq üçün imtahandan keçmiş, yaxud fənn kompetensiyasını ən azı 50% təsdiqləmiş və ya akademik doktorluq dərəcəsi əsasında status qazanmış aparıcı müəllimə mentor müəllim statusu verilə bilər. Əks halda aparıcı müəllim mentor statusu qazanmaq üçün təkrar fənn imtahanı verməlidir.

Mentor müəllim statusunu qazanmaq üçün aparıcı müəllim qiymətləndirmədən keçməlidir. Qiymətləndirmə aşağıdakılardan ibarətdir:

a) Mentor müəllim statusuna uyğun olaraq peşə qabiliyyəti imtahanının verilməsi;

b) Müəllimin praktiki fəaliyyətinin qiymətləndirilməsi:

b.a) Kənar müşahidə və müəllim tərəfindən mövzu çərçivəsində həyata keçirilmiş dərsdən sonrakı refleksiya (özünüqiymətləndirmə).

b.b) Məktəb ictimaiyyəti üzvləri ilə söhbət (müsahibə) və portfolionun qiymətləndirilməsi.

Məktəb ictimaiyyəti üzvləri ilə söhbət (müsahibə) müəllimin peşə standartları ilə nəzərdə tutulmuş öhdəliklərin keyfiyyətinin müəyyənləşdirilməsinə istiqamətlənib.

Müəllimin portfoliosu həmin sxemin 4-cü maddəsi və müəllimin peşəkar standartları ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini təsdiq edən sənədlər əsasında qiymətləndirilir.

Həmin sxemin 4-cü maddəsi və müəllim standartı ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini təsdiq edən sənədlər ümumi təhsil idarəsi sistemində olan elektron portfolioya yüklənməlidir.

Mentor müəllim statusuna uyğun olaraq, əgər şəxs qüvvədə olan qanunvericilik əsasında Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri tərəfindən tətbiq edilmiş həddi aşarsa peşə qabiliyyəti imtahanını uğurla vermiş hesab olunur. Şəxsin imtahanda əldə etdiyi nəticələr 3 il ərzində qüvvədə qalır. Şəxsin həmin 3 il ərzində qiymətləndirmənin praktiki hissəsini keçmək hüququ var.

Mentor müəllimin peşə qabiliyyəti imtahanını uğurla başa vurması halında praktiki hissədə müəllimlərin qiymətləndirilməsini Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzi həyata keçirir.

Müəllimin praktiki fəaliyyətinin hər hansı komponenti qanunvericiliyə uyğun olaraq Müəllimlərin Milli Peşəkar İnkişafı Mərkəzinin direktoru tərəfindən təsdiqlənmiş qiymətləndirmə alətləri ilə qiymətləndirilir.

# İMTAHANDA İŞTİRAK ETMƏYƏN 1500-DƏN ÇOX TƏCRÜBƏÇİ MÜƏLLİM MƏKTƏBİ TƏRK EDƏCƏK

**30 aprel tarixinə qədər müəllimlik kompetensiyası imtahanına qeydiyyat olmamış təcrübəçi müəllimlərə payızda əlavə qeydiyyat imkanı verilməyəcək.** Onların yerinə isə məktəb yeni vakansiya elan edəcək. Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzinin direktoru Berika Şukakidzenin "etaloni.ge"yə verdiyi məlumata görə, müəllimlik kompetensiyasının təsdiq edilməsi imtahanına **1572** təcrübəçi müəllim qeydiyyat olunmayıb.

"Müəllimlər imtahanına qeydiyyat olmayan 1572 təcrübəçi müəllim peşəsini tərk edir və əgər daxili saatlar bölünməzsə məktəblərdə həmin sayda vakansiya elan olunacaq. Məktəblərdə müəllim çatışmamazlığı yaranmasın və məktəblər müəllimsiz qalmasın deyə indi təcrübəçi müəllim statusu yalnız gələn tədris ilinə qədər davam etdiriləcək. Gələn ildən təcrübəçi müəllim statusu ümimiyyətlə olmayacaq.

İmtahana qeydiyyat olmuş gənc müəllimlərin sayı 11 mindir. Onlardan 10 kredit toplayanlar və "axtaran" proqramına qeydiyyat olanlara məktəbə daxil olmağa imkan yaradılacaq.

35 ildə ilk dəfə Gürcüstan məktəblərindən 8 minə yaxın müəllim getdi və təxminən 2400 müəllim gəldi. İndi yenə mindən artıq müəllim gələcək və may ayından yenə 2000-dən 3000-ə yaxın vakansiya elan olunacaq. Belə hal ilk dəfə baş verdi.

Təcrübəçilərin payızda kompetensiyalarını təsdiqləmək üçün daha bir şansları var. Təsdiqləməsələr yolu başqa kompetensiyalarını təsdiqləyəcək namizədlərə verəcəklər", - deyə Berika Şukakidze bildirib.

Onun sözlərinə görə, 30 aprelə qədər müəllimlər imtahanına qeydiyyatdan keçməmiş təcrübəçilərin yerinə məktəblər 15 avqust tarixindən vakansiya elan edəcəklər.

"Kim imtahana qeydiyyat olmayıb onlar payızda planlaşdırılan təcrübəçi müəllim imtahanına qoşula bilməyəcəklər. Onların statusu bərpa olunmadı və onların yerinə 15 avqustdan sonra vakansiya elan olunacaq. Məktəblər vakansiya elan etmək və yeni müsabiqə keçirmək üçün hazırlaşacaqlar", - Müəllimlər Evinin rəhbəri bildirib.

Xatırladaq ki, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin qərarına əsasən, 30 aprelə qədər qeydiyyatdan keçmiş təcrübəçi müəllimlər kompetensiyanı təsdiqləmək üçün payızda imtahan verəcəklər. **Müəllim olmaq istəyənlər və "axtaranlar" üçün imtahanlar iyulun 22-dən iyulun 30-na kimi keçiriləcək.**

**Səhifəni hazırladı: Aynurə ƏLİYEVA**

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN



*(əvvəli ötən sayda)*

Parlamentin 22 noyabr 1918-ci il tarixli iclasında təhsil müəssisələrində din fənninin icbari qaydada tədrisinin ləğvi məsələsi müzakirə olunur. Bu iclasda Ə.Haqverdiyev söz alaraq Azərbaycan-türk məktəblərində şəriətin tədrisinin saxlanılmasının labüdlüyünü söyləyir: *"...Şəriətin tədrisinin ləğv edilməsi vətəndaşların inancına qarşı mübarizə aktı deyil, ancaq buna rəğmən əhalinin müsəlman kəsiminin azşüurlu kütləsi arasında təbliğat aparmaq üçün müxtəlif təxribatçılara material vermək lazım deyil. Belə azşüurluluğun mövcud olduğu halda şəriətin tədrisinin dayandırılması bütün müsəlman məktəblərinin bağlanmasına bərabərdir. Şəriət din dərsi deyil, Məhəmməd dini əsasında yaranmış əxlaq təlimidir və onu yalnız müsəlmanlar öyrənmir".*

Parlamentin bir həftə sonrakı 29 noyabr tarixli iclasında Ə.Haqverdiyev yenə çıxış edərək xalq təmsilçilərinin diqqətini Borçalı qəzasında və ümumən müsəlmanlar yaşayan bölgələrdə təhsilsizliklə, savadsızlıqla bağlı mövcud vəziyyətə yönəldir. O, Tiflisdə belə tək bircə müsəlman məktəbinin fəaliyyət göstərdiyini, onun da maddi çatışmazlıq ucbatından bağlanmaq üzrə olduğunu bildirərək, parlamentdən yaranmış durumla bağlı müvafiq addımlar atılmasını xahiş edir və bu xüsusda haqqında bəhs etdiyi Tiflis müsəlman yüksək pillə ibtidai məktəbinin Maarif Nazirliyinin sərəncamına keçirilib, dövlət hesabına maliyyələşdirilməsi təklifini irəli sürür. "Saxalxo sakme" gürcü qəzeti "hümmətçi" Ə.Haqverdiyevin sözügedən çıxışda hökuməti müsəlman bölgələrinə diqqət yetirməməkdə günahlandırdığını yazırdı. 1918-1921-ci illərdə müstəqil və demokratik Gürcüstan Respublikasında azərbaycanlıların təhsili məsələlərini tədqiq etmiş pedaqoq-alim G.Qocayeva-Məmmədova Ə.Haqverdiyevin qaldırdığı problemin aktuallığına diqqət yetirərək yazırdı: "Gerçəkdən də, siyasi gərginlik üzündən 1918/19 tədris ilində Tiflis və Borçalı qəzalarında 11 məktəbdə məşğələlər aparılmırdı, məktəbyaşlı uşaqların 62.1 faizi təhsildən kənarda qalmışdı".

Qeyd edək ki, GMMŞ yerli türk-müsəlman əhalinin təlim-tədris və mədəni-maarif məsələləri ilə məşğul olmaq, hətta məktəblər açmaq səlahiyyətinə sahib idi. Şura Tiflis müsəlman ikisinifli məktəbinin bazasında yüksək pillə ibtidai məktəbin yaradılması barədə qərar qəbul etmiş və bu məktəbin inspektoru vəzifəsinə Ə.Haqverdiyevin namizədliyini təklif etmişdi. Tiflis müsəlman yüksək pillə ibtidai məktəbinin dövlət xəzinəsindən maliyyələşdirilməsi ilə bağlı müvafiq strukturlara müraciətlərinə müsbət cavab ala bilməyən GMMŞ bu layihəsini yarımçıq saxlamağa məcbur olmuşdu.

Gürcüstan parlamentinin Maarif komissiyasının 18 dekabr 1918-ci il tarixli iclasında iki azərbaycanlı deputatın – Ə.Haqverdiyevin və H.Həsənzadənin iştirakı ilə respublikadakı Azərbaycan-türk məktəblərinin durumu müzakirə olunur. Həmin iclasda da Ə.Haqverdiyev məruzə ilə çıxış edərək Gürcüstan ərazisində ümumilikdə 15 müsəlman məktəbinin olduğunu və onlardan yalnız 10-nun fəaliyyət göstərdiyini bildirir. Yekun qərar bu olur ki, iclasda iştirak edən Maarif Nazirliyinin təmsilçisi Q.Cumberidzeyə müsəlman müəllimlər üçün kursların açılması ilə bağlı tez bir zamanda plan hazırlayıb Maarif komissiyasına təqdim edilməsi barədə tapşırıq verilsin.

1918-ci ilin sonlarında tam bir il öncə o zaman Borçalı qəzasının komissarı vəzifəsini tutan Ə.Haqverdiyevin də fəal iştirakı ilə qarşısı alınmış problem – ermənilərin Gürcüstanın güneyindəki Borçalı və Axalkələk qəzalarına yönlənmiş ərazi iddiaları yenidən baş qaldırır. Bu dəfə ermənilər artıq hərbi yola əl ataraq 1918-ci ilin dekabr ayında Gürcüstanın ərazi bütövlüyünə silahlı təcavüz edirlər. Ermənistan (Ararat) Respublikasının ordu birliklərinin Borçalı qəzasına soxularaq aktiv hərbi əməliyyatlara başlaması Gürcüstan parlamentində bu mövzuda geniş müzakirələrin aparılmasına yol açır. Parlamentin erməni işğalına həsr olunmuş 17 dekabr 1918-ci il tarixli iclasında Əbdürrəhim bəy Haqverdiyev Gürcüstan müsəlmanları adından nitq söyləyərək bu ölkədəki soydaşlarının digər tarixi dövrlərdə olduğu kimi, indi də əsl vətəndaşlıq mövqeyi sərgilədiklərini və düşmən əleyhinə vuruşduqlarını bəyan edir:

*"Vətəndaşlar! Parlament üzvləri!*

*Bu tarixi anda mən Gürcüstan Respublikasının müsəlman vətəndaşları adından çıxış edirəm. Böyük Avropa müharibəsi (Birinci Dünya müharibəsi – F.V-H., N.V.-H.) sona yetdi. Biz əmin idik ki, bu dəqiqələrdən sonra xalqlar, xüsusilə də Cənubi Qafqazda yaşayan xalqlar birlikdə mehriban şəraitdə yaşamağa başlayacaqlar. Ancaq bizim gözləntilər özünü doğrultmadı. Qonşu respublika bizə müharibə elan etdi. Axı mənə elə gəlir ki, indi bu müharibə üçün heç bir səbəb yox idi. Gürcülərlə ermənilər arasında mövcud olan bütün bu məsələləri sülh konfransı yolu ilə həll etmək olardı. Bugün çap olunmuş teleqramlardan da göründüyü kimi, bizim hökumət mübahisəli məsələlərin nizamlanması üçün öz səylərini əsirgəmirdi. Amma bir erməni partiyası ("Daşnaksutyun" nəzərdə tutulur – F.V-H., N.V.-H.) sırf eqoist səbəblər ucbatından bu atəşin alovlanmasına cəhd göstərdi. Mən deməliyəm ki, 1905-ci il atəşinin (1905-1906-cı illər türk-erməni toqquşmaları nəzərdə tutulur – F.V-H.) üçüncü tərəfin əli ilə yaxıldığına əmin idim, ancaq indi buna bir az şübhəm var (deputat Qabaşvili: "Biz onda da şübhələnirdik").*

*Biz parlamentə daxil olanda və öz bəyanatımızda bildirdik ki, Gürcüstan müsəlmanları öz vətənlərini, düşmənin kim olmasından asılı olmayaraq, hər kəsdən bütün mümkün vasitələrlə qoruyacaqlar və indi də, sözdən əmələ keçmək lazım olan bir vaxtda da bu bəyanatı təntənəli şəkildə təkrar edirik (alqışlar). XVIII əsrin sonlarında mərhəmətsiz Ağa Məhəmməd xanın qoşunları Şuşa qalasını mühasirəyə alanda, şahzadə Aleksandr İrakli oğlunun başçılığı altında Gürcüstan ordusu Qarabağ xanı İbrahimi xilas etmək üçün yürüş etdi (deputat Veşapeli: "Sizin yaxşı yaddaşınız var imiş!"). Bundan sonra İran şahı gürcülərə acıqlananda və öz qoşunlarını onların üzərinə yönəldəndə onda bizim Borçalı qəzasının müsəlmanları Gürcüstan qoşunlarının səflərində yer aldılar və öz dindaşlarına qarşı çıxdılar (deputat Vaçnadze: "Yaşasın Borçalı!"). Bütün bunlar Borçalı qəzasının müsəlmanlarının törəmələrinin yaddaşında bugünədək yaşayır.*

*Və indi müsəlman dəstəsi artıq yaranıbdır və onlar Gürcüstanın düşmənləri əleyhinə vuruşurlar (alqışlar). Bu düşmənlər yalnız Gürcüstanın deyil, bütün Cənubi Qafqazın müstəqilliyinə qarşı müharibə elan ediblər və müstəqilliyə dəyər verən hər kəs onu bütün vasitələrlə qorumalıdır. Müsəlmanlar bunu anlayır və Gürcüstan və Cənubi Qafqazın müstəqilliyini ayaqlar altına atmağa köklənənlərə qarşı məmnuniyyətlə mübarizə aparırlar (yerdən səslər: "Doğrudur"). Mən inanıram ki, Gürcüstan Respublikasının digər hissələrinin müsəlmanları: Siqnax, Telav, Axalsıx və digər qəzaların müsəlmanları da Borçalı müsəlmanları kimi davranacaqlar və bütün imkanlarından istifadə edərək onlar da öz vətənlərini dəstəkləyəcəklər.*

*Və yenə də bəyan edirəm, parlamentə daxil olanda olduğu kimi, böyük məmnunluq hissi ilə bəyan edirəm: - Yaşasın Gürcüstan! (gurultulu alqışlar)".*



**Ə.Haqverdiyev Azərbaycan ziyalıları ilə**



Ə.Haqverdiyevin işlədiyi Borçalı qəza idarəsi (Şulaver kəndi)

Əbdürrəhim bəyin alovlu nitqi gürcü ictimaiyyətində geniş əks-səda doğurur. Bu barədə mətbuat dəyərləndirmə apararaq yazırdı: "Ermənilərin Gürcüstana qarşı çıxışı onların Qafqaz xalqlarının müstəqilliyini dəfn etmək arzusu ilə diktə olunubdur, bu məhz beləcə də anlaşılıbdır, yekdilliklə belə qiymətləndirilibdir. Bu baxımdan müsəlman təmsilçisi Haqverdiyevin bizim parlamentdə söylədiyi nitq diqqətəlayiqdir...".

*(davamı gələn sayda)*

**Fəxri VALEHOĞLU-HACILAR,**
*tarix üzrə elmlər doktoru*
**Namiq VALEHOĞLU-HACILAR**
*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi*



# AYASOFYA

Sahib MUSTAFAOĞLU
sahib1975.sm@gmail.com

Türkiyə prezidenti Ərdoğan iyulun 10-da Ayasofya (Müqəddəs Sofiya) məbədinin məscidə çevrilməsi barəsində sərəncam imzalayıb. Bundan öncə Türkiyə Ali Dövlət Şurası iyulun 2-də məsələni müzakirə edərək yekun qərar qəbul edib. Artıq cari ilin 24 iyulundan etibarən Ayasofya muzey kimi fəaliyyətini dayandıraraq məscid statusu əldə edəcək. Ayasofyanın məscidə çevrilməsi anonsu bir il bundan öncə Türkiyə prezidenti tərəfindən səsləndirilmişdir. Həmin vaxt Ərdoğanın bu açıqlamasını Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasına adekvat cavab reaksiyasi kimi dəyərləndirmək olardı. Bir çox yüksək siyasi və dini dairələrdə Türkiyə liderinin belə bir addım atacağına skeptik yanaşırdılar. Digər tərəfdən, bu yöndə Ərdoğanın qəti iradə nümayiş etdirməsinə qüvvət verən amillər də yox deyildi. Son onilliklərdə türklər tərəfindən Ayasofyanın yenidən məscidə çevrilməsi üçün petisiyalar təşkil edilmişdir.

537-ci ildə Bizans imperatoru I Yustinian (482-565) tərəfindən tikilmiş Ayasofya məbədi xiristian dünyası və pravoslav ortodoks kilsəsinin rəmzi hesab edilmişdir. 1453-cü ildə Osmanlı sultanı Mehmet Fateh tərəfindən Konstantinopol tutulduqdan sonra Ayasofya məscid elan edilmişdir. Lakin 1934-cu ildə Türkiyə Respublikasının ilk prezidenti Mustafa Kamal Atatürk Ayasofyaya müzey statusu vermişdir. 1985-ci ildə UNESCO Ayasofyanı ümumdünya irsi sıralarına daxil etmişdir.

Təbii ki, Ərdoğanın bəlli məsələ ilə verdiyi tarixi qərar xristian və Qərb dünyasında tənqidlərə məruz qalacaqdır. Artıq ABŞ, Yunanıstan, Rusiya və Avropanın qabaqcıl digər rəsmi və dini dairələri Ankaranın bu qərarını hiddətlə qarşılayır. Təəssüf ki, bu ölkələr içərisində Yunanıstan bir az daha "qabağa" gedib. Belə ki, Yunanıstanın müdafiə naziri ölkəsinin Türkiyə ilə münasibətlərinin istənilən müstəvidə, o cümlədən hərbi istiqmətdə inkişafına hazır olduqlarını bildirərək Ankaranı hədələməkdən çəkinməmişdir. Yenə də bu ölkənin mədəniyyət naziri Saloniki şəhərində anadan olmuş və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün ev muzeyini Pont yunanları və ermənilərin "soyqırımı" muzeyinə çevirəcəklərini bildirmişdir.

Rusiya pravoslav kilsəsi də muzeyin məscidə çevrilməsini neqativ qiymətləndirərək mövzunun həssas və incə olmasını nəzərə alınmadan qəbul edilmiş səhv siyasi qərar olduğunu bildirdi. Moskva mitropoliti isə daha sərt danışaraq qərarı pravoslav dünyasına zərbə adlandırdı. Lakin XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Gürcüstan çarlıq və knyazlıqlarının Rusiya tərəfindən işğal edilməsi ilə bərabər 1806-ci ildə Gürcüstan Avtokefal Pravoslav Kilsəsinin də statusunun ləğv edilməsi haqqında təəssüf belə etməmişdir.

Ayasofyanın muzey statusunun saxlanmasına dair çağırış edənlər sırasında ABŞ dövlət katibi Mayk Pompeo da var. O, Türkiyənin dini ənənələrə sadiq qalaraq Ayasofyanın muzey kimi qalacağına əmin olduğunu bildirmişdir. Görünür Pompeo belə bir bəyanat verdikdə hafizəsini təzələməyib və yaxud o, bu qədərmi unutqandır? Bəs əmr və göstərişlərini yerinə yetirdiyi Trampın Qüdslə bağlı qərarı zamanı nə üçün öz "boss"una "dil-ağız" etməyib? Yəhudilər tərəfindən müsəlman möminlərinin ibadət üçün Məscidi-Aksaya (Əl-Əqsa) daxil olmasına qadağalar tətbiq ediləndə nəyə görə Pompeo səsini belə çıxarmır?

Ayasofya məsələsi Türkiyənin sırf daxili işidir və Ankara heç kimə hesabat verməyə borclu deyil. Bu barədə Ərdoğan çıxışlarında bildirmişdir. Onun sözlərinə görə, Türkiyə xaricilərin xoşuna gəlmək üçün deyil, öz xalqının mənafeyi və istəklərinə uyğun olaraq addım atır. Avropada anti-türk meyllərinin artmasına baxmayaraq Ərdoğan Türkiyənin böyük və güclü dövlətə çevrilməsi yolunda öz qərarlarından dönməyəcək.

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## GÜRCÜSTANIN ÜRƏYİ

*(əvvəli ötən sayda)*

Əgər Mamadavid (Mtatsminda dağı, soydaşlarımızın təbirincə Sənan dağı-M.M.) dağına çıxsanız və Tiflisə nəzər salsanız, Narınqalanın ətəkləri boyu sizin gözünüz önündə bizim paytaxtın qədim Tiflis adlanan hissəsi sərgilənəcəkdir. Qədim qalanın yarısı dağılmış divarları dağın yüksəkliyindən aşağıya doğru baş alıb gedir, lakin yolun ortasında kəsilir. Əgər bu dağıntılara ağlın gözü ilə baxmağı davam etdirsək, xətt Kürə doğru uzanar və Metexi qalası ilə üzbəüz olan yerə çıxar. Bu, o biri tərəfdir. Bu tərəfin barısı isə təxminən qədim seminariyanın yanından enişə doğru gedir. Bu Narınqalanın məhlulu da Kürə tökülürdü. ("Narınqala" son vaxtlar adlanıb, güman ki, hansısa fars xanının (Narının) şərəfinə. Köhnə vaxtlar yalnız qala adlanıb. "Qala yüksək qayanın üstündə inşa olunan qəsrdir və Salalak dərəsi boyu Kürə qədər hasar çəkilmişdir" (Vaxuştinin coğrafiyası, 1904-cü il, səh.70). "Kartlis tsxovre-



Mtatsminda dağı

ba"nın ("Gürcüstan həyatı"nın) nəql etdiyinə görə, bu qalanı (Narınqalanı) farslar Mtsxeta istehkamına qarşı inşa ediblər. Sonralar çoxlu döyüşlər üzündən bu qala da öz ilkin simasını itirmişdir. Bu xarabalıqlar, bugünkü öz siması ilə və taktikası ilə XVII-XVIII əsrlərin tikilisini təşkil edir.

Qədim Tiflis bu qövsdə yerləşdirilmişdir, bu barının bu tərəfində qalan yer isə - "qaretubani" adlanırdı. Köhnə vaxtlar qaretubaninin ətrafında bağlar və yaylaq yeri olan çöllük idi. İndiki Aleksandr bağı əvvəllər qəbiristanlığı təşkil edirdi. Kukiya körpüsü ilə körpü arasında cala var idi. Nazirbağ yaxınlığında isə sal körpüsü. "Kartlis tsxovreba"nın ("Gürcüstan həyatı"nın) sözlərinə görə, "Qədim vaxtlarda Tiflis kənd idi". Şəhəri Vaxtanq Qorqasali saldı. Tiflis şərq ekzotikasının əsas damarı olaraq Gürcüstanın həyatında böyük rol oynayırdı. O, Gürcüstanın ürəyi idi. "Farslar Gürcüstanı viran qoymağa gələndə öncə Tiflisdə qədəmini bərkitməyə cəhd edirdilər". Tiflis elə heyrətləndirici tövsiyə ilə, onun əsasını qoyanın dərrakəsi ilə məharətlə inşa olunub. Bir diqqət yetirin: Tiflis eyni bir vaxtda Kaxeti cinahını, Kartli cəbhəsini və Mtsxeta sıra dağlarını qoruyur".

Lakin bizim diqqətimiz Tiflisi müəyyən edən hissəsinə doğru yönəlib. Ərazi: Tatar meydanı, Kldisubani (Qaya məhəlləsi), Abanaant dərəsi, Əncirlər dərəsi (Nəbatat bağı), İsani boğazı, kiçik və böyük siracxananın həndəvərləri, Metexinin hər iki körpüsünün hüdudları – Kürün qıjovundan baqqalxanaya qədər və hamamların



Tatar meydanı (Şeytanbazar)

həndəvərləri, Seyidabad, Ortacala, Xarpux və onun hüdudu – Gəncə qapısı.

Tatar meydanından başlayaq.

Tiflis bir ticarət mərkəzi olaraq tanınmışdır. Bu ticarət mərkəzi olaraq Tatar meydanı hesab olunurdu. Bura hər cür mal və ərzaq-azuqə gəlirdi.

Şorayeldən, Marneuldan və Durnukdan bura un, taxıl, Qarayazıdan düyü, Ağdaşdan qarpız, Zaqataladan ləzgi armudu, Şıxlıdan pendir, Duşetdən və Qarabağdan qoyun, yun, kərə yağı, Hamamlıdan yumurta, Cəlaloğludan və Məngilisdən kartof, Ləmbəlidən yağ, Culfadan və Kağızmandan duz, Borçalıdan soğan, badımcan və sair gətirilirdi.

Tatar meydanının ortasında böyük tərəzi – qapan tərəzisi qoyulmuşdu. Buradan da mal əhaliyə və alverçilərə paylanırdı.

Bax, bu indiki kənar meydan kəndin öz məhsulunu gətirdiyi Tiflisin ürəyi idi.

Kiçik bir cizgi:

Kənddən gətirilən mal ilk növbədə şəhər sakinlərinə, sonra isə alverçilərə satılmalı idi. Qapan tərəzisində bayraq ucaldılan zaman əhali, sonra isə alverçilər almalı idi. Saat 12 tamam olanda bayraq endirilirdi və bu, onu göstərirdi ki, bundan sonra alverçilər ilə kəndlilər arasında alış-veriş başlamalı idi. (Bu qapanın bayrağı barədə M.Çodrişvili öz xatirələrində bizə belə nəql edir: "...1866-cı ildə Tiflisə gəldim... Budur, yenə meydanın ortasında yüksək alabəzək dirək gördüm ki, bunun da üzərində qırmızı bayraq asılmışdır. Bu dirəyin dibində böyük qapan var idi ki, bur-



Narınqalanın ətəkləri, Nəbatat bağı

da da camaat milçək kimi var-gəl edirdi. Bəzisi unun pərakəndəsini ölçürdü, bəzisi duz və sair. Bu meydanda uzun müddət gəzib dolaşırdım. Günortanın topu da atıldı və meydanın bayrağını da götürdülər" ("İnqilabın salnaməsi", 1924-cü il, №2-3, səh.312, 313).

*(Qeyd: Şəkillər Dimitri Yermakovun fototekasındandır).*

*(davamı gələn sayda)*

*Gürcü dilindən tərcümə:*
**Mirzə MƏMMƏDOĞLU**

## QARDABANİ MERİYASINDA KADR DƏYİŞİKLİYİ APARILIB



Qardabani merinin müavini Revaz Eqadze tutduğu vəzifədən azad olunub. Bu haqda R.Eqadze öz feysbuk səhifəsində yazıb: “Mənim əziz dostlarım, 2020-ci ilin 2 iyul tarixindən Qardabani bələdiyyəsinin merinin müavini vəzifəsindən azad edildim. Ancaq ölkəmizə, ictimaiyyət və vətəndaşlarımıza başqa, yeni iş mövqeyimdən xidmət göstərməyə davam edirəm. Bütün həmkarlarıma və əməkdaşlara birgə həyata keçirdiyimiz işlər üçün minnətdarlığımı bildirirəm”.

“İnfo Rustavi”nin məlumatına görə, Revaz Eqadze Qardabani merinin müşaviri olaraq vəzifəsinə davam edəcək. Müavin vəzifəsində isə onu Otar Qavaşelişvili əvəz edəcək.

Məlumata əsasən, Qardabani meriyasında kadr dəyişikliyi aparılır. Xatırladaq ki, 4 ay əvvəl Qardabani merinin birinci müavini vəzifəsini Giorgi Şincikaşvili tutub. Həmçinin Uşaq Bağçaları Birliyinin rəhbəri Cemal Davitadze də vəzifəsini tərk edib. Onu Anton Mamukaşvili əvəz edəcək.

Meriyada aparılan kadr dəyişikliyi ilə əlaqədar “İnfo Rustavi” Qardabani meri Ramaz Budağaşvili ilə əlaqə saxlamağa çalışıb. Ancaq R.Budağaşvili telefon zənglərinə cavab verməyib.

Qeyd edək ki, R.Eqadze 2017-ci ildən Qardabani bələdiyyəsinin icra başçısının müavini vəzifəsini tuturdu.

## ALMANİYA SƏFİRİ MARNEULİDƏKİ ZURAB JVANİA MƏKTƏBİNDƏ QONAQ OLUB



Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili və Almaniyanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Hubert Knirş yerli hakimiyyət nümayəndələri və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) proqramlar üzrə rəhbəri ilə birgə Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin Marneuli regional təhsil mərkəzinə baş çəkiblər.

Tərəflər məktəbdə qüvvədə olan proqramlar, dövlət dilinin öyrənilməsinin vacibliyi və distant təhsil prosesi haqqında danışıblar.

Ş.Rexviaşvili məktəbin rəhbərinə və xarici həmkarlara əməkdaşlıq və fəal dəstək üçün minnətdarlıq edib, təhsil mərkəzinin gördüyü işlərin və etnik azlıq nümayənələrinin dövlət dilini öyrənməsinə və inteqrasiyasına kömək edən proqramların əhəmiyyətindən danışıb: “Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbi Marneuli bələdiyyəsində öz əhəmiyyətindən irəli gələrək çox sayda yaxşı işlər görür. Məktəbəqədər hazırlıq və məktəb yaşlarındakı şəxslər, eləcə də dövlət məmurlarının hazırlanması istiqamətində də işlər həyata keçirilir və əsaslı şəkildə dil öyrənmək və peşə kvalifikasiyasını artırmaq üçün bütün şərtlər var”.

Görüş zamanı həmçinin təhsil mərkəzinin Almaniya ilə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

## DAŞBAŞ KANYONUNDA 240 METR UZUNLUĞUNDA ŞÜŞƏ KÖRPÜ TİKİLİR



Gürcüstanda ilk dəfə qoruq ərazisində özəl beynəlxalq sərmayə həyata keçirilir. Algeti milli parkında Daşbaş kanyonunda 83 hektar torpaq sahəsində unikal turistik infrastrukturun qurulması işləri həyata keçirilir.

Layihəyə əsasən, Daşbaş kanyonunda 240 metr uzunluğunda şüşə körpü qurulacaq, ekoturistik cığırlar, səyahətçilər üçün mərkəz tikiləcək. Ərazidə həmçinin mehmanxanalar və başqa turistik infrastrukturun tikilməsi planlaşdırılır.

Layihənin investisiya dəyəri 50 milyon lardan çoxdur. Layihəni yəhudi şirkəti KASS LAND həyata keçirir. Ətraf Mühitin Mühafizəsi Nazirliyinin məlumatına görə, işlər pandemiyaya baxmayaraq dayandırılmayıb. Daşbaş kanyonunun sahəsi 669 hektardı və Avropanın ən böyük kanyonları arasındadır.

*Mənbə: bm.ge*

## SEÇSƏ YA SEÇMƏSƏ?



Hər şey seçməklə başlayır. Elə mən də bu yazını yazmağı seçdiyimə görə bölüşürəm. Əlbəttə, niyə yazmalıyıq deyə düşünmüşəm. Gəldiyim subyektiv qənaətə görə, hətta subyektivliyin ağını çıxardaraq desəm, cümlə qurmağı bacaran, bir balaca həvəsi olan, müşahidə etməyi sevən, azca da olsa mütaliə edən kəslər yazmalıdır. Bəlkə oxuyanlarımız azdır, ancaq yenə də davam etməliyik. Yazının danışmaqdan üstünlükləri müqayisəedilməz dərəcədədir. Yazı qalır, önəmlisi də odur ki, yazıda oxucu cavab verə bilmir, müdaxilə şansı yoxdur. Əgər cavab verəcəksə, uyğundur ki, yazıyla cavab versin. Bu da bir seçimdir, polemika gözəl nəticələrə hamilə qalar.

Yazmaq sözü çox iddialı səslənsə də məqsəd düşüncəni qalıcı qılmaq və düşüncələrlə ortaq dil tapmaqdır. Qətiyyən topluma öndərlik etmək kimi bir niyyəti özündə ehtiva etmir. Çünki toplum dediyimiz insanlar yığıncağı hələ də “seçsə ya seçməsə?” sualına cavab verməyə tələsmir, deyəsən heç cavab vermək niyyətində də deyil. Bu da bir seçimdir, ancaq gərək seçib qurtaralar.

“Seçsə ya seçməsə” sualına ta elə bu il keçiriləcək seçkilərdən gəlirəm. Bəli, bəli... Gələcəkdən, gələcək seçkilərdən gəlirəm. Bu suala cavab axtaraq gərək. Görürəm ki, seçkilərdə bir ailənin iki üzvü, kişi və qadın səsverməyə gəlir. Kişi pərdə arxasına keçmiş qadına (çox ehtimal həyat yoldaşıdır, bunu onların dialoqlarından təxmin edə bilərik) “seç, qurtar” deyir, qadınsa “qoy rahat seçim, tələsdirmə” deyir. Beləcə onlar səslərini verərək seçirlər. Səsvermə demişkən, bu sözün bizim dildə hayvermə kimi sinonimi bu sözün əslində bir səsvermədən çox şeyə xidmət etdiyini göstərir. Siz həm səs verirsiniz, həm də içinizdə sizi səsləyən “mən”ə hay verirsiniz. “Mən” elə cavab istəyir ki, o daxildəki səslənişə cavab versin. Bəs daxildəki “mən” nə istəyir? Bu da şəxsə və kəmiyyətə görə dəyişir. Məsələn, bəzilərində “ağrımaz baş”, “leviy əlaqələr”, yuxarıların yanında “özünü ağıllı aparan vətəndaş”, “bir tikə zəhər” istəyir, bəzilərində isə “hökumətlə hökumətlik edən”, “dövlətə qarşı gələn” olmağı istəmir. Bütün bunlar “mən”in tərbiyəsi ilə bağlıdır. Hər kəs özünə görə haqlı ola bilər, amma...

Koronavirusun qaz vurub, qazan doldurduğu vaxtda ölkədə bir neçə yerdə etirazlar baş verərkən vətəndaşlar yolları bağladılar. Yol bağlamaq həmin an kömək etsə də, sonra faydası azalır. Məsələn, alternativi olan yolu bağlamaq sabah sizə heç nə qazandırmaz, əksinə dövlət üçün siz “yol kəsən vətəndaş” statuslu şəxs olacaqsınız. Bununla da sizin bürokratik dairələrdə yolunuzu yolunu kəsdikləriniz kəsəcəklər. Yol sizindir, siz qərar verin.

Mən isə daha böyük alətdən istifadə edərdim: SEÇKİLƏR.

Seçkilərdə pərdəarxası hər kəsin intim həyatı kimi gizli qalır (bəzən qala bilmir). İntim həyat deyəndə səhv başa düşməyin. Siz istədiyiniz ideologiyanı dəstəkləyə bilərsiniz, lakin pərdəarxasında hansı ilə birlikdə olacaqsınız, bax bu hissəsi artıq siyasətdir. Həmin pərdəarxasından isə “seçsə ya seçməsə?” sualına cavab verənlər qalib çıxırlar. Əlbəttə, seçkilərə getmək, iştirak etmək də bir seçimdir. Bəs siz seçənlərdənsinizmi? Elədirsə, vaxt azdır, seçin qurtarın, görək nə rəngdir.

**Elməddin MƏMMƏDLİ**
*“Gündəlik – Gürcüstan” feysbuk səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL
2020-Cİ İL
№008 (112)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2019-2020 TƏDRİS İLİNİN MƏZUNLARINA ATTESTATLAR İYULUN 20-DƏN VERİLƏCƏK

Təhsilin idarəsi ilə bağlı məlumat sisteminin bəyanatına görə, 2020-ci ilin 20 iyulundan ümumtəhsil attestatlarının verilməsinə başlanılacaq.

Attestatlarını almaq istəyənlər Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin, İctimai Mərkəzin və ya Ədliyyə Evinin istənilən filialına müraciət edə bilərlər.

**Bunun üçün səlahiyyətli xidmətə təqdim olunmalıdır:**

- *Şəxsiyyəti təsdiq edən sənəd;*
- *Doğum şəhadətnaməsi (attestatı almaq üçün həddi-büluğa çatmamış şəxsin qanuni nümayəndəsi müraciət edərsə);*
- *Uyğun qayda ilə təsdiqlənmiş etibarnamə (attestatı almaq üçün maraqlanan şəxsin nümayəndəsi müraciət edərsə);*
- *Attestatı tezləşdirilmiş qaydada alacaqsa, bu qayda üçün ödənişi təsdiq edən qəbz.*

## BU İL ÖLKƏDƏ 274 NƏFƏR QİÇSƏ YOLUXUB

Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzinin məlumatına görə, bu il ölkədə QİÇS-ə 274 yeni yoluxma halı qeydə alınıb.



İyulun 2-nə olan məlumata əsasən, ölkədə bu xəstəliyə yoluxanların ümumi sayı 8 376 nəfər təşkil edir. Onların 6 252-si kişi, 2 124-ü isə qadındır.

Pasiyentlərin böyük əksəriyyəti 29-39 yaş qrupuna daxildir. QİÇS 4 340 nəfərdə inkişaf edib, 1 705 pasiyent isə dünyasını dəyişib.

Yoluxma hallarının böyük hissəsi Tbilisinin payına düşür – 3 029 nəfər.

QİÇS-ə yoluxan uşaqların sayı isə 116-dır. Onların 70-i oğlan, 46-sı qızdır. Uşaqlar arasında bu xəstəlikdən 27 ölüm halı qeydə alınıb.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ AZALIB

Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-iyun aylarında Gürcüstanın xarici ticarət dövriyyəsinin həcmi 5 milyard 072,5 milyon ABŞ dolları təşkil edib.

İllik müqayisədə bu həcmdə 16,3% azalma qeydə alınıb.

Hesabat dövründə Gürcüstanın ixracının həcmi 1 milyard 503,5 milyon dollar, idxalının həcmi isə 3 milyard 568, 9 milyon dollara bərabər olub. Ötən ilin eyni dövrü ilə müqayisədə ixracın həcmində 15,6%, idxalın həcmində isə 16,5% azalma qeydə alınıb.

Yanvar-iyunda ölkənin ticarət kəsiri 2 milyard




065,4 milyon dollar olub ki, bunun da ümumi ticarət dövriyyəsindəki payı 40,7%-ə bərabər olub.

## GÜRCÜSTANA SÜD MƏHSULLARI İDXAL EDƏN 5 ÖLKƏ



Milli Statistika Xidməti ərzaq məhsullarının idxalı ilə bağlı 2019-cu ilin məlumatlarını yayımlayıb. Seçilmiş məhsullar siyahısına süd və süd məhsulları, şəkər tozu, soğan, düyü və kartof daxildir.

Məlumata əsasən, ötən il Gürcüstana ümumilikdə 72 503 600 ABŞ dolları dəyərində süd və süd məhsulları; 50 346 500 dollarlıq şəkər tozu; 12 413 300 dollarlıq soğan; 6 741 100 dollarlıq düyü və 2 439 40 dollarlıq kartof daxil olub.

Süd və süd məhsullarının idxalı həyata keçirilən ölkələr arasında Ukrayna liderlik edir (18 794 500 ABŞ dollar), 2-ci yerdə Fransa (9 802 400 ABŞ dollar), 3-cü yerdə Rusiya (6 609 700 ABŞ dolları), 4-cü və 5-ci yerlərdə isə Belarus (5 937 800 ABŞ dolları) və Almaniya durur (5 912 100 ABŞ dolları).

## İYUNDA UCUZLAŞAN 5 MƏHSUL

2020-ci ilin iyun ayında ötən ayla müqayisədə ölkədə inflyasiya səviyyəsi 1,4 faiz, illik inflyasiya səviyyəsi isə 6,1 faiz təşkil edib.

Milli Statistika Xidmətinin məlumatına görə, qeyd olunan göstərici 2020-ci ilin iyununda, ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz təşkil edib. Tütündən başqa illik baza inflyasiyası göstəricisi isə 6,2 faiz müəyyən edilib.

**2020-ci ilin iyun ayında ötən ilin analoji dövrü ilə müqayisədə ucuzlaşan 5 məhsul:**

- **Soğan - 29,37%;**
- **Kartof - 11,12%;**
- **Kök - 8,65%;**
- **Kələm - 6,79%;**
- **Bibər - 0,08%.**

*Mənbə: bpn.ge*

## İYUNDA BAHALAŞAN 10 MƏHSUL



Milli Statistika Xidmətinin hesabatına əsasən, iyun ayında ötən ayla müqayisədə tərəvəz və bağçılıq məhsulları 28,7%, meyvə 6,2%, süd məhsulları isə 5,2% ucuzlaşıb.

İyun ayında ötən ilin analoji dövrü ilə müqayisədə ən çox bahalaşan 10 məhsul isə bunlardır:

- **Qarabaşaq - 122,81%;**
- **Alma - 96,57%;**
- **Şəhərlərarası telefon danışığının qiyməti - 68,29%;**
- **Limon - 49,82%;**
- **Yaşıl lobya - 48,90%;**
- **958 əyarlı qızıl evlilik üzüyü - 48,10%;**
- **Sarımsaq - 47,40%;**
- **Portağal - 44,36%;**
- **Üzüm -40,63%;**
- **Kivi - 39,99%.**

*Mənbə: bpn.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.